**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 24 iyun tarixli 182-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmişdir.**

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə İdarəsi haqqında

## Ə S A S N A M Ə

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə İdarəsi (bundan sonra – İdarə) Naxçıvan Muxtar Respublikasının ərazisində (bundan sonra-ərazidə) baş vermiş yanğınların söndürülməsini və bununla bağlı təxirəsalınmaz xilasetmə işlərini (insanların, əmlakın va s.) hayata keçirən, yanğınsöndürmə texnikasına və vasitələrinə, habelə könüllü və idarədənkənar yanğından mühafizə bölmələrinin yaradılmasına dair tələbləri müəyyənləşdirən qurumdur.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra - Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

1.3. İdarə öz fəaliyyətini bilavasitə tabeliyində olan struktur bölmələri, Nazirliyin aparatı, tabeliyində olan qurumları və digər icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə qarşılıqlı əlaqədə qurur.

1.4. İdarə müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri, Nazirliyin və özünün adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. İdarənin saxlanma xərcləri və fəaliyyəti Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi və qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. İdarə Naxçıvan şəhərində yerləşir.

### 2. İDARƏNİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

2.0. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. yanğınların söndürülməsi və nəticələrinin aradan qaldırılması ilə bağlı təxirəsalınmaz xilasetmə işlərinin aparılmasını, müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak etməklə bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.0.2. yanğınların söndürülməsi və nəticələrinin aradan qaldırılması ilə bağlı təxirəsalınmaz xilasetmə işlərinin aparılması üzrə vahid dövlət sistemi çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti, o cümlədən yerli özünüidarəetmə orqanlarının fəaliyyətini əlaqələndirmək;

2.0.3. İdarənin fəaliyyətinə aid edilən məsələlər üzrə normativ tənzimləməni və nəzarət funksiyalarını həyata keçirmək.

## 3. İDARƏNİN VƏZİFƏLƏRİ

3.0. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. ərazidə yanğınların söndürülməsinin təşkili üçün qüvvə və vasitələrin cəlb edilməsi qaydalarını işləyib hazırlamaq və təsdiq olunması üçün Nazirliyə təqdim etmək;

3.0.2. ərazidə yanğınların söndürülməsinin təşkili üçün cəlb olunan qüvvə və vasitələrin hazırlığına qanunvericilikdə nəzərdə tutulmuş qaydada nəzarət etmək;

3.0.3. yanğınların söndürülməsinin təşkilinə və bununla bağlı xilasetmə işlərinin aparılmasına ümumi rəhbərliyi, bu sahədə fəaliyyət göstərən könüllü və idarədənkənar yanğınsöndürmə bölmələrinin fəaliyyətinin əlaqələndirilməsini həyata keçirmək;

3.0.4. yanğınlarla bağlı əməliyyat şəraitini nəzərə alaraq, yanğından mühafizə bölmələrinin səmərəli fəaliyyətini təşkil etmək məqsədi ilə tədbirlər hazırlayıb həyata keçirmək

3.0.5. yanğından mühafizə bölmələrinin yanğınsöndürmə, qəza-xilasetmə və digər döyüş hərəkətləri göstəricilərini təhlil edərək qabaqlayıcı tədbirlər üzrə təkliflər hazırlamaq;

3.0.6. yanğınların söndürülməsi üçün qüvvə və vasitələrin idarəetmə sisteminin, yanğınsöndürmə taktikası və üsullarının təkmilləşdirilməsi məqsədi ilə təkliflər işləyib hazırlamaq və həyata keçirmək;

3.0.7. yanğınsöndürmə məsələləri üzrə elmi-praktiki, yanğın-taktiki təlimlərin keçirilməsini təşkil etmək və İdarənin tabeliyində olan bölmələrə təşkilati-metodik yardım göstərmək;

3.0.8. söndürülən yanğınların nəticələrinin aradan qaldırılması ilə əlaqədar təxirəsalınmaz xilasetmə əməliyyatlarının statistik uçotunu, geniş miqyaslı və nəzəri-praktiki əhəmiyyət kəsb edən yanğınların tədqiqatını aparmaq;

3.0.9. İdarənin struktur bölmələrində şəxsi heyətin yüksək döyüş hazırlığını təmin etmək və qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirmək;

3.0.10. İdarənin şəxsi heyətinin döyüş, xidməti və fiziki hazırlıq proqramlarını işləyib hazırlamaq və həyata keçirilməsini təmin etmək;

3.0.11. İdarənin əməkdaşlarının ilkin, ixtisasartırma, yenidən hazırlıq kurslarının təşkili üzrə illik və perspektiv planları hazırlamaq, təşkil olunan kursları dinləyicilərlə komplektləşdirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

3.0.12. könüllü və idarədənkənar yanğından mühafizə bölmələrinin döyüş və peşə hazırlığına nəzarət etmək, onların inkişafına köməklik göstərmək məqsədi ilə tədbirlər və metodiki tövsiyələr hazırlayıb həyata keçirmək;

3.0.13. İdarənin struktur bölmələrində əməyin mühafizəsi və təhlükəsizlik texnikası işini təşkil etmək, əməkdaşlar arasında xəsarət alma hallarının təhqiqatını aparmaq, onların qarşısının alınması məqsədi ilə profilaktik tədbirlər həyata keçirmək;

3.0.14. yanğınsöndürmə xidmətinin təşkili, döyüş və peşə hazırlığı üzrə beynəlxalq təcrübəni öyrənmək, bu sahədə qabaqcıl iş metodları və üsullarının tətbiqi üzrə təkliflər, metodiki tövsiyələr və icmallar hazırlamaq, müsabiqələr keçirmək;

3.0.15. İdarənin istifadəsində olan yanğınsöndürmə texnikasının və vasitələrinin müvafiq qaydalara uyğun istismarı, texniki qulluğu, təmiri və saxlanması üzrə zəruri tədbirlər görmək;

3.0.16. yanğın təhlükəsizliyi sahəsində elmi-tədqiqat və texniki sınaq fəaliyyəti həyata keçirmək;

3.0.17. İdarənin fəaliyyət sahələrində avtomatlaşdırma, rabitə və operativ idarəetmə sisteminin müasir texnologiyalara uyğun qurulması istiqamətində Nazirliyə təkliflər vermək;

3.0.18. yanğın texnikası və avadanlıqlarının, yanğınsöndürücü vasitələrin, maddələrin və materialların sınağının aparılmasını təşkil etmək;

3.0.19. yanğın texnikası ilə bağlı nəqliyyat hadisələrinin qarşısının alınması və sürücülərin peşə hazırlığının artırılması üçün müvafiq dövlət qurumları ilə birlikdə tədbirlər həyata keçirmək;

3.0.20. İdarənin tabeliyində olan struktur bölmələrində xidmət fəaliyyətinin və icra intizamına nəzarət etmək;

3.0.21. ərazidə yanğından mühafizə məsələləri ilə bağlı müşavirələr, elmi-praktiki konfranslar və digər tədbirlərin keçirilməsini təşkil etmək;

3.0.22. yanğından mühafizə sisteminin vəziyyəti, onun maddi-texniki bazasının möhkəmləndirilməsini, fəaliyyətinin təkmilləşdirilməsi barədə Nazirliyə təkliflər vermək;

3.0.23. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikasının Milli Konsepsiyasının və digər dövlət proqramlarının yerinə yetirilməsini təmin etmək;

3.0.24. İdarənin fəaliyyət istiqamətlərinə dair Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

3.0.25. İdarənin vəzifələrini həyata keçirərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.0.26. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla yanğınların söndürülməsi və nəticələrinin aradan qaldırılması ilə əlaqədar qəza-xilasetmə işlərinin aparılmasında müasir texniki vasitələrdən istifadə olunması üzrə tədbirlər görmək;

3.0.27. yanğından mühafizə sisteminin inkişafına ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə istifadə olunmasını təmin etmək;

3.0.28. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qoruması məqsədi ilə, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirlərini həyata keçirmək;

3.0.29. yanğından mühafizə idarəsi haqqında əhalinin məlumatlandırılması və maarifləndirilməsi işinin təşkilində iştirak etmək;

3.0.30. İdarənin tabeliyində olan strukturların şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi sahəsində Nazirlik qarşısında məsələ qaldırmaq;

3.0.31. İdarənin fövqəladə halların nəticələrinin aradan qaldırılmasında cəsurluq və fədakarlıq göstərən əməkdaşlarının mükafatlandırılması üçün Nazirliyə təkliflər vermək;

3.0.32. İdarənin saxlanması üçün ayrılmış vəsaitlərin xərc smetasına uyğun maliyyələşdirilməsinə nəzarət etmək, mühasibat uçotunun aparılmasını və maliyyə hesabatlarının hazırlanmasını təmin etmək;

3.0.33. İdarənin tabeliyində olan struktur bölmələrin əməkdaşlarının həyatının icbari sığortalanmasının təmin edilməsi üçün öz səlahiyyətləri daxilində tədbirlər görmək;

3.0.34. İdarənin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericilikdə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.0.35. İdarədə kargüzarlıq işini qanunvericiliyə uyğun təşkil etmək və həyata keçirmək.

## 4. İDARƏNİN HÜQUQLARI

4.0. İdarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. yanğınların söndürülməsi və nəticələrinin aradan qaldırılması ilə əlaqədar təxirəsalınmaz xilasetmə işləri aparılan zaman habelə yanğın təhlükəli faktorların mövcudluğu və ya mövcud olma təhlükəsi yarandıqda bütün istehsalat sahələrinə və digər obyektlərə (yerlərə) maneəsiz daxil olmaq, lazımi hallarda qapıları, pəncərələri və digər əhatəedici konstruksiyaları sökmək;

4.0.2. yanğınların söndürülməsi zamanı obyektlərin və müəssisələrin rabitə, su və nəqliyyat vasitələrindən maneəsiz və əvəzsiz istifadə etmək;

4.0.3. yanğınsöndürmə əməliyyatı aparılan sahələrə və ya obyektlərə yaxın küçə və yollarda nəqliyyat və piyadaların hərəkətini məhdudlaşdırmaq və ya qadağan etmək, vətəndaşlara həmin sahənin və ya obyektin ayrı-ayrı yerlərinə daxil olmamaları və oranı tərk etmələri barədə göstərişlər vermək;

4.0.4. yanğınlar haqqında əhalini xəbərdar etmək və məlumatlandırmaq üçün kütləvi informasiya vasitələrinin imkanlarından əvəzsiz olaraq istifadə etmək;
4.0.5. yanğınların söndürülməsi və onlarla əlaqədar digər təxirəsalınmaz xilasetmə işləri aparılan zaman öz səlahiyyətləri çərçivəsində müəssisələr, vəzifəli şəxslər və vətəndaşlar üçün yerinə yetirilməsi məcburi olan qərarlar qəbul etmək;
4.0.6. idarə, müəssisə və təşkilatlarda müqavilə əsasında, ödənişli fəaliyyət göstərən yanğından mühafizə bölmələrinin yaradılması barədə müvafiq qaydada Nazirliyə təkliflər vermək;
4.0.7. hüquqi və fiziki şəxslərə yanğından mühafizə sahəsində ödənişli treninqlər keçirmək, sertifikatlar vermək və qanunvericiliklə müəyyən edilmiş qaydada digər ödənişli xidmət göstərmək;
4.0.8. yanğından mühafizə sisteminin formalaşdırılması, təşkili və inkişafı məsələləri üzrə qanunvericilik aktlarının layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;
4.0.9. yanğından mühafizənin təşkili üzrə icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;
4.0.10. İdarənin fəaliyyət istiqamətlərinə uyğun təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, yanğınsöndürmə texnikası və avadanlığı, odsöndürücü maddələr, yanğınsöndürmə və xilasetmə üsulları üzrə tədqiqatlar aparmaq, aidiyyəti üzrə rəylər və təkliflər vermək;
4.0.11. İdarənin struktur bölmələri üçün mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görmək;
4.0.12. zərurət yarandıqda, qanunvericiliklə müəyyən edilmiş qaydada müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;
4.0.13. Nazirik tərəfindən bülleten və digər nəşrlərin buraxılmasında, internet saytının yaradılmasında iştirak etmək və onlardan istifadə etmək;
4.0.14. yanğından mühafizə fondlarının yaradılması üçün təkliflər vermək;
4.0.15. yaşayış məntəqələrində, obyekt və müəssisələrdə yanğınların söndürülməsi üçün nəzərdə tutulmuş odsöndürücü maddələrin (köpük, qaz, toz və s.), mühəndis qurğularının (yanğına qarşı su xətləri, yanğın hidrantları və kranları, avtomatik yanğınsöndürmə qurğuları və s.), su tutumlarının, yolların, keçidlərin və s. nasaz olduğu hallarda Nazirliyə məlumat vermək və Yanğın Nəzarəti İdarəsini xəbərdar etmək;
4.0.16. baş vermiş yanğının söndürülməsi prosesində Yanğın Nəzarəti İdarəsinin müvafiq ərazi bölməsinə yanğınsöndürmə rəhbəri tərəfindən yanğının qısa müddət ərzində və az itki ilə söndürülməsini təmin etmək məqsədi ilə əlverişli şəraitin yaradılmasına dair icrası məcburi olan göstərişlər vermək;
4.0.17. müqavilə əsasında yanğından mühafizəsi təşkil olunan müəssisə və obyektlərdə yanğına qarşı profilaktika işini həyata keçirmək, bu obyektlərdə yanğın təhlükəsizliyi norma və qaydalarının pozulması halları haqqında müvafiq qərar qəbul edilməsi üçün Nazirliyin Yanğın Nəzarəti İdarəsinin rəisinə təqdimat vermək;
4.0.18. baş vermiş yanğınların tədqiqatının (təhlili və təsviri) aparılması ilə əlaqədar yanğın baş vermiş obyektin hadisəyə qədərki yanğına qarşı vəziyyətini əks etdirən sənədləri Yanğın Nəzarəti İdarəsindən sorğu etmək;
4.0.19. İdarənin fəaliyyəti ilə bağlı məhkəmədə öz səlahiyyətləri daxilində iddiaçı və cavabdeh qismində çıxış edir;
4.0.20. İdarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirir.

## 5. İDARƏNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

5.0. İdarənin aparatı və tabeliyində olan strukturlar İdarənin vahid sistemini təşkil edir.

5.0.1. İdarə öz fəaliyyətini tabeliyində olan strukturlarla qarşılıqlı əlaqədə həyata keçirir.

5.0.2. İdarənin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən təsdiq olunmuş büdcədən maliyyələşdirilən əməkdaşlarının say həddi daxilində aparatının və strukturuna daxil olan bölmələrin əməkdaşlarının sayı və ştat cədvəli, büdcə vəsaitləri üzrə xərclər və digər mənbələr hesabına gəlirlər və xərclər smetası Nazirlik tərəfindən təsdiq edilir

5.0.3. İdarənin aparatına və strukturuna daxil olan bölmələrə xidmətə qəbul və vəzifəyə təyin etmə, xidmətdən və vəzifədən azad etmə Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri (bundan sonra-nazir) tərəfindən həyata keçirilir.

5.0.4. Mülki şəxslərin İdarədə vəzifəyə təyin və vəzifədən azad edilməsi qanunvericiliyə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri və ya fövqəladə hallar naziri tərəfindən səlahiyyət verilmiş vəzifəli şəxslər tərəfindən həyata keçirilir.

5.0.5. İdarənin əməkdaşlarının xidmətkeçmə qaydaları və şərtləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

5.0.6. İdarənin xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə və xüsusi rütbəyə görə maaşlarının məbləği Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən, mülki işçilərinin əmək ödənişi isə qanunvericiliklə müəyyən edilir.

5.0.7. İdarədə qulluq etmiş əməkdaşların və onların ailə üzvlərinin pensiya təminatı qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

5.0.8. İdarənin aparatının və büdcədən maliyyələşdirilən struktur bölmələrinin maliyyələşdirilməsi dövlət büdcəsində Nazirliyin saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

5.0.9. İdarənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarənin rəisi rəhbərlik edir.

5.0.10. İdarəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsinə görə İdarənin rəisi şəxsən məsuliyyət daşıyır.

5.0.11. İdarənin rəisinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

5.0.12. rəis müavini, idarənin rəisi tərəfindən onlara həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.0.13. İdarənin rəisi aşağıdakı səlahiyyətlərə malikdir:

5.0.13.1. İdarənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.0.13.2. öz müavininin səlahiyyətlərini müəyyən edir;

5.0.13.3. İdarənin aparatının və strukturuna daxil olan qurumların əməkdaşlarının vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Nazirliyə təkliflər verir;

5.0.13.4. İdarənin maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

5.0.13.5. İdarənin sisteminə daxil olan strukturların əməkdaşlarına qanunvericiliklə nəzərdə tutulmuş həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi barədə Nazirliyə təqdimat verir;

5.0.13.6. İdarənin səlahiyyətlərinə aid edilən məsələlər üzrə növbəti il üçün Nazirliyin saxlanılması xərclərinin formalaşdırılması ilə bağlı təkliflər verir, fəaliyyəti ilə əlaqədar olaraq qanunvericiliklə müəyyən edilmiş mənbələr hesabına Nazirliyin büdcədənkənar vəsaitlərinin yaradılmasında iştirak edir və Nazirliyin təsdiq etdiyi gəlirlər və xərclər smetasına uyğun olaraq həmin vəsaitlərdən təyinatı üzrə istifadə olunmasını təmin edir;

5.0.13.7. səlahiyyətləri daxilində İdarənin aparatının və tabeliyində olan strukturların fəaliyyətinə dair əmrlər və göstərişlər verir, normativ hüquqi aktların icrasını təşkil edir;

5.0.13.8. İdarənin və strukturuna daxil olan bölmələrin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması və maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirlik qarşısında məsələ qaldırır;

5.0.13.9. İdarənin və strukturuna daxil olan bölmələrin texniki təchizat normaları barədə Nazirliyə təkliflər verir;

5.0.13.10. öz səlahiyyətləri daxilində İdarənin aparatının struktur bölmələrinin və tabeliyində olan bölmələrin əsasnamələrinin layihələrinin müvafiq qaydada hazırlayır və təsdiq olunması üçün Nazirliyə təqdim edir;

5.0.13.11. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsini təmin edir;

5.0.13.12. Qanunvericiliyə müvafiq olaraq digər hüquqlardan istifadə edir.